# Şuşa dəyərlərini qoruyan və yaşadan mübariz qəzet

**Xəbər verdiyimiz kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın bina edilməsinin 270 illiyi şərəfinə ölkəmizdə davam edən Şuşa İlində bu şəhərin bir əsrə yaxın canlı və davamlı salnaməsinə çevrilmiş eyniadlı qəzetin də 90 yaşı tamam oldu. Bu münasibətlə 30 ildən bəri Bakıda məcburi köçkün həyatı yaşayan Şuşa 1 saylı orta məktəbində Azərbaycan Mətbuat Şurasının və Şuşa Rayon İcra Hakimiyyətinin birgə yubiley tədbiri keçirilib.**






Təntənəli mərasimi giriş sözü ilə açan Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva yubilyar qəzetin şəhərin və ölkənin ictimai-mədəni həyatında oynadığı önəmli roldan söz açaraq bildirib ki, 1932-ci ilin bu günlərində ilk sayı işıq üzü görmüş bölgə nəşri sovet quruluşunun simvollarını daşıyan müxtəlif adlarla fəaliyyət göstərməsinə baxmayaraq, həmişə özünün milli mövqeyi ilə də seçilib. Redaksiyaya müxtəlif illərdə peşəkar, vətənpərvər ziyalılar rəhbərlik edib, onun şəhifələrində yerli ictimaiyyətin fəalları ilə yanaşı, ölkənin görkəmli simaları da maraqlı yazılarla çıxış ediblər. Qarabağ münaqişəsi başlanan gündən isə qəzet bölgədə milli cəbhənin söz döyüşü tribunasına çevrilib.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov isə qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci il noyabrın 8-də Şuşanı işğaldan azad etməsi bu müqəddəs diyarın adını daşıyan nəşrin əlamətdar tarixinin böyük ruh yüksəkliyi ilə qeyd edilməsində başlıca amildir. Rayon rəhbəri şuşalıların sevimli qəzetinin tezliklə doğma şəhərdə fəaliyyət göstərəcəyinin redaksiyaya ən yaxşı yubiley töhfəsi olacağını söyləyib.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid deyib ki, "Şuşa" qəzeti hər daşında, hər qayasında milli varlığımızın, mənəvi dəyərlərimizin bir çox rəmz və örnəklərini daşıyan bir şəhərin mükəmməl salnaməsini yaratmaqla bağlı fəliyyətində uzun və şərəfli bir yol gəlib. AMŞ sədri yubilyar nəşrin Həsən bəy Zərdabi ənənələrinə sadiq qalaraq həmişə maarifpərvər bir missiya daşıdığını da vurğulayıb. Rəşad Məcid mərasimdə AMŞ-nın yubiley diplomunu qəzetin redaktoru Vasif Quliyevə təqdim edib.

Yubiley tədbirində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, Milli Məclisin deputatı Ziyad Səmədzadə, Mətbuat Şurasının İdarə Heyətinin üzvü, BDU-nun professoru Qulu Məhərrəmli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, Elm və Təhsil Nazirliyi mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov, Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli, Milli Məclisin sabiq deputatı Flora Qasımova, "Qarabağa aparan yol" qəzetinin baş redaktoru Əli Mahmud və başqaları "Şuşa" qəzetinin rayonun əvvəlki 60 illik həyatında oynadığı fəal rolu və son 30 ildə Şuşa ilə bağlı məxsusi yaddaşın, məhv edilmiş zəngin mədəni irsin nişanələrinin qorunub saxlanmasındakı müstəsna xidməti yüksək dəyərləndiriblər.

Tədbirdə qeyd edilib ki, 90 yaşı tamam olan "Şuşa" qəzeti təkcə şəhər həyatının deyil, ümumən, Qarabağla bağlı tarixi həqiqətlərin işıqlandırılmasında mühüm rol oynayıb, geniş maarifçilik işi aparıb, dövlətçilik irsimizin təbliğinə, ədəbi-mədəni ənənələrimizin zənginləşməsinə töhfələr verib və indi də bu vacib missiyanı davam etdirir. Qəzetə 2005-ci ildən "Canlı Şuşa ensiklopediyası" sayılan, bütün varlığı ilə bu müqəddəs diyarımıza bağlı olan tədqiqatçı jurnalist, publisist və tərcüməçi Vasif Quliyevin rəhbərlik etdiyini vurğulayan natiqlər kollektivi səmimi təbrik ediblər, redaksiyaya gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Sonda çıxış edən "Şuşa" qəzetinin redaktoru Vasif Quliyev redaksiyanın 90 illik fəaliyyətinə verilən yüksək dəyərə görə təşəkkürünü bildirib. Yubiley tədbiri Şuşanın incəsənət ustalarının konsert proqramı ilə davam etdirilib.

**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 1 noyabr.- S.4.